# Qələbədən bizi 62 il ayırır

1941-ci il gecə saat 4-də faşist Almaniyası hücum etmək haqqında 1939-cu il müqaviləsinini kobudcasına pozaraq böyük zərbə qüvvəsilə 190 diviziya, 5,5 milyon canlı qüvvə, 4300 tank, 4980 döyüş təyyarəsi, 190 döyüş gəmisi, 47,2 min müasir silah və minamyotla Sovet İttifaqına xaincəsinə hücum etdi.

Güclü hərbi texnika və müasir hərbi təcrübəyə malik olan alman-faşist orduları «Barbarossa planı» əsasında ildırım sürətilə SSRİ-yə üç istiqamətdə «Şimal», «Mərkəz» və «Cənub» istiqamətində hücuma keçdi.

Çox qısa zamanda Pribaltikanın, Ukrayna və Belarusiyanın xeyli hissəsini, Krımı ələ keçirdi, Moskva istiqamətində irəliləməyə başladı.

Düşmən Barents dənizindən Qara dənizədək 5 min kilometrlik cəbhə boyu irəliləyirdi. Hitler yeddi həftə ərzində Arxangelsk – Həştərxan xəttinə çıxmağı nəzərdə tutmuşdu.

O zaman Azərbaycandan 650 min nəfərdən çox adam cəbhəyə getmişdi. Onların 420 mini həlak olub. Hər dörd tankdan biri Azərbaycan neftinin hesabına hərəkət edib. Müharibə illərində SSRİ-də çıxarılan 310 min ton neftin 75 min tonunu, cəbhəyə göndərilən neft məhsullarının isə 85-90 faizini Azərbaycan vermişdi.

Bakıda 130 növ silah-sursat istehsal edilirdi. 1941-1943-cü illərdə respublika əhalisi Dövlət Müdafiə Fonduna 15 kq qızıl, 1 tona yaxın gümüş, çoxlu ərzaq, paltar və digər qiymətli xammal vermişdi. Əslində, Bakı qəhrəman şəhər olmağa çoxdan layiqdir.

Müharibədə leriklilər də istər ön cəbhədə olsun, istərsə də arxa cəbhədə böyük rəşadət və fədakarlıq göstərmişlər.

Lerikdən müharibəyə 5861 nəfər getmiş, onların 2000 nəfərdən çoxu döyüşlərdə həlak olmuşdu.

Döyüş rəşadəti göstərən cəbhəçilərin, arxa cəbhə iştirakçılarının 226 nəfərinə «1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 62 illiyi» yubiley medalı verilmişdir.

Leriklilər müharibədə qəhrəmanlıq göstərmiş üç Şöhrət ordenli Əli Hüseynovla, Lenin ordenli Həmzə Şıxəliyevlə, Feruz Şıxəliyevlə, Əbutasib Cavadovla fəxr edirlər.

Lerik rayon mərkəzində xatirə abidəsinin önündə yığışan veteranlardan Ataməli Şıxəliyev, Əlif Heydərov, Ağaverdi Mövlanov, Dədəcan Kərimov, Müslüm Feyziyev, Bilal Babayev, Şamirzə Əliyev, Yədulla Zahidov, Məmməd Səfərov, Şirməmməd Məlikov, Güləli Rəcəbov, Daşdəmir Paşayev, Əjdər Əhədov cəbhədə həlak olmuş silahdaşlarını yad etdilər.

Cəbhəçilər bəlkə də bilmirdilər ki, Qələbənin 62 illiyini qeyd etmək onlara nəsib olacaq. Vaxtilə onların geri qayıtmaq ümidləri də çox olmayıb.

İndi budur, onlar bizim sıralarımızda addımlayırlar. Arzu edirlər ki, növbəti qələbə bayramını Qarabağın azadlığı günü qeyd etsinlər.

Qələbə bayramınız mübarək!

**Ağaş MİRZƏZADƏ,**
**Lerik rayonunun Azərbaycan kəndi**